**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

***Əlyazması hüququnda***

**SEVİNC ARİF QIZI QULİYEVA**

# ŞİRVANIN ORTA ƏSR MÜDAFİƏ TİKİLİLƏRİ (ARXEOLOJI TƏDQIQATLAR ƏSASINDA)

**5505.02 – Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Arif Məhəmməd oğlu Məmmədov**
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Vəli Baxşəli oğlu Baxşəliyev**
*AMEA-nın müxbir üzvü, tarix üzrə elmlər doktoru*

**Bəhlul İmran oğlu İbrahimli**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin **"Ümumi tarix"** kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yaradılmış (5505.02 – "Arxeologiya") dissertasiyaların müdafiəsini həyata keçirən F/D 01.171 Dissertasiya Şurasının "07 " 03 2016-cı il tarixli iclasında
saat " " da keçiriləcəkdir.

**Ünvan: Bakı şəhəri, AZ 1043 H.Cavid prospekti 115**
Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.
Avtoreferat " " _______ 2016-cı ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının**
**elmi katibi** **Səfər Hüseyn oğlu Aşurov**
*tarix üzrə fəlsəfə doktoru*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın maddi-mədəniyyət nümunələri içərisində xüsusi yeri olan və spesifik xüsusiyyətləri ilə diqqəti cəlb edən orta əsrlərin müdafiə tikililəridir. Müdafiə tikililərinin bəziləri qismən yaxşı saxlansa da əksər hissəsi müharibələr zamanı dağıdılmış, müdafiə sisteminin bir çox elementləri sıradan çıxmışdır. Arxeoloji tədqiqatlar müdafiə tikililərinin dövrünün, quruluşunun, tikinti texnikası və tikinti materiallarının, dağıntıya məruz qalması və bərpa olunması vaxtının müəyyən edilməsində xüsusi əhəmiyyətə malikdir. Arxeoloji tədqiqatlar zamanı adına yazılı mənbələrdə rast gəlinməyən müdafiə tikililəri də aşkar olunur və öyrənilir. Orta əsr müdafiə tikililərinin tədqiq olunması vətənimizin bu dövr tarixinin öyrənilməsi istiqamətində mühüm addımdır. Müdafiə tikililərinin tədqiqi dövrün ictimai-siyasi, hərbi məsələlərinin öyrənilməsində də xüsusi əhəmiyyət kəsb edir.

Əsasən, feodalizm dövrünün məhsulu olan müdafiə tikililəri Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər arxeoloji cəhətdən çox zəif öyrənilmişdir.

Bu dövrlərə aid sənədlərdən S.Ə.Şirvaninin Şirvanın bəzi abidələri haqqında olan əlyazmalarını, rus, Qərbi Avropa etnoqraf və topoqraflarının qeydlərini, B.Dornun qəbirüstü abidələr haqqındakı müşahidələrini nəzərə almasaq, bölgənin orta əsr müdafiə tikililəri XX yüzilliyin 40-50-ci illərinə qədər arxeoloji cəhətdən az tədqiq edilmişdir. Son illərdə orta əsr müdafiə tikililərində aparılan arxeoloji qazıntı işləri müəyyən dərəcədə qənaətbəxş olmuşdur. Arxeoloji qazıntılar nəticəsində feodal şəhərləri kimi formalaşan, yerləşdiyi bölgənin inzibati-siyasi və mədəni mərkəzinə çevrilən, beynəlxalq ticarətdə mühüm rol oynayan Bərdə, Şutur (Şətəl), Gəncə, Beyləqan, Bakı, Qəbələ, Muğan, Şamaxı, Şabran, Naxçıvan, Kiran və s. kimi orta əsr şəhərləri və onların müdafiə tikililəri haqqında daha ətraflı məlumat əldə etmək mümkün olmuşdur.

Şəhərlərin istehsal, ticarət və mədəni mərkəzlərə çevrilməsi onların həm xarici düşmənlərdən, həm də qonşu və yerli feodalların hücumlarından qorunması üçün güclü müdafiə tikililərinin yaradılmasını zəruri edirdi. Müdafiə tikililərinin möhtəşəmliyi və mükəmməlliyi şəhərlərin iqtisadi-mədəni inkişaf səviyyəsindən asılı idi.

İlk vaxtlarda qalalar əsasən səddən, çəpərlərdən, bir-birinə keçirilmiş taxta hasardan və sadə daş divardan ibarət idi. Sonralar aran şəhərlərinin ətrafına dərin xəndəklər qazıb içərisini su ilə doldururdular. Yaşayış məntəqələri oradakı əhalinin qüvvəsi ilə müdafiə olunurdu. Böyük şəhərlərin müdafiə sisteminə yaxın ərazidə yerləşən qala qəsrlər – forpostlar da daxil idi.

Müdafiə tikililəri Şirvan bölgəsi də daxil olmaqla ölkəmizin bütün orta əsr şəhərlərində vardır. İndiyə qədər onların yalnız müəyyən bir hissəsi ətraflı öyrənilmişdir. Dissertasiya işində bu tip müdafiə tikililərinin plan quruluşuna, təyinatına və coğrafi mövqeyinə xüsusi diqqət yetirilmişdir. Hal-hazırda Azərbaycanın müharibə vəziyyətində olması, qonşu dövlətlərin əsassız ərazi iddiaları da orta əsr müdafiə tikililərinin tədqiqini aktuallaşdıran səbəblərdəndir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiya işi Azərbaycanın Şirvan bölgəsinin orta əsrlər dövrünün müdafiə tikililərinin arxeoloji baxımdan öyrənilməsinə həsr edilməklə bölgənin III – XVI əsrlər dövrünə aid tarixini özündə əks etdirir.

III əsrdən başlayaraq Şirvan ərazisi Sasanilər dövlətinə, VII əsrdən isə Ərəb Xilafətinə qatılmışdır. Xilafətin parçalanmasından sonra Şirvanşahlar dövlətinin tərkibində olmuşdur. Tədqiqat işinin III-XVI əsrləri əhatə etməsi dissertasiyanın mənbəşünaslıq bazası, bölgənin ictimai-siyasi, hərbi durumu ilə bağlıdır. Dissertasiya işinə Şirvanın arxeoloji cəhətdən tədqiq edilmiş müdafiə tikililəri cəlb olunmuşdur.

Dissertasiya işinin III əsrdən başlanması bu dövrdə Azərbaycanda yeni ictimai münasibətlərin, feodal istehsal

üsulunun formalaşması, bununla əlaqədar yaranan sinfin feodalların (mülkədar) əmlakının qorunması, həm də sasanilərin müdafiə qüdrətinin artırılması, onların qoşunlarının yerləşdirilməsi üçün mövcud müdafiə qurğularının bərpası və yenilərinin tikilməsi ilə əlaqəlidir. Bu proses Ərəb işğalları və Azərbaycanda müstəqil feodal dövlətlərinin yaranması, dövlətçilik ənənələrinin dirçəlişi dövründə də davam etmişdir. Tədqiqat işinin XVI əsrlə başa çatması müəyyən siyasi hadisələr və texniki tərəqqi ilə bağlıdır. Belə ki, 1538-ci ildə Şirvanşahlar dövləti süqut etmiş və Şirvan Azərbaycan Səfəvi imperiyasının tərkibinə qatılmış, odlu silahın meydana çıxması ilə daha mükəmməl müdafiə qurğularına zərurət yaranmışdı.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyektini Şirvan ərazisinin orta əsrlər dövründə inşa edilmiş müdafiə tikililəri, istehkamları, gözətçi məntəqələri, qalaları və s. təşkil edir. Arxeoloji tədqiqatlarda yazılı mənbələrin məlumatlarından geniş istifadə olunaraq müdafiə tikililəri haqqında tam elmi fikrin formalaşmasına cəhd edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Şirvanın orta əsr yaşayış məntəqələrini, xüsusən inkişaf etmiş şəhərlərin müdafiə sistemini, müdafiə tikililərinin bərpa və yaranma səbəblərini, inkişafını, eləcə də tənəzzül dinamikasını, bölgənin təhlükəsizliyinin təminatındakı rolunu, həmçinin memarlıq və inşaat işini, hərb tariximizdəki yerini, tikinti texnikası, tikinti materialları və quruluşuna görə oxşar müdafiə tikililərinin arealını, onların xarakterik xüsusiyyətlərini müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın mühüm vəzifəsi Azərbaycanın orta əsrlərdəki müdafiə qüdrətinin, eləcə də hərb tarixinin öyrənilməsində Şirvanın müdafiə tikililərinin əhəmiyyətini. yerini və rolunu müəyyən etmək, müdafiə sahəsində baş vermiş dinamik inkişafı izləmək, arxeoloji materiallara əsasən həmin abidələrin xronologiyasını dəqiqləşdirməkdir.

**Mövzunun mənbəşünaslıq bazası.** Dissertasiya işinin əsas

mənbəşünaslıq bazası Şirvanın müdafiə sisteminə malik yaşayış yerləri, xüsusilə şəhərlər, müdafiə istehkamları, qalalar, həmçinin bu abidələrdən əldə olunmuş arxeoloji materiallardır. Maddi mədəniyyət nümunələri ilə yanaşı orta əsr yazılı mənbələrinin verdiyi məlumatlardan da istifadə olunmuş, həmin məlumatlar arxeoloji tədqiqatların nəticələri ilə uzlaşdırılmış və mühüm elmi nəticələr əldə olunmuşdur. Tədqiqat zamanı ilk orta əsr alban tarixçisi Musa Kalankatlı, erkən İslam dövrü ərəb müəllifləri, orta əsr ərəb-fars dilli mənbələr, yunan-Roma, Bizans və gürcü mənbələrindən də ümumi şəkildə istifadə olunmuşdur.

Yazılı məlumatlar içərisində Şamaxı haqqındakı ərəb dilli mənbələr daha çoxdur. Ərəblərin Şirvana hücumu, Məzyədilər (861-1027) sülaləsinin onlara qarşı müstəqillik uğrunda mübarizəsi, ərəb tarixçisi əslən fars olan Əbu Cəfər Məhəmməd ibn Cərir ət-Təbərinin əsərlərində daha geniş yer tutur. Münəccimbaşı da Yəzidiyyə (Şamaxı) şəhəri haqqında çox qiymətli məlumatlar verərək, eyni zamanda Gülüstan qalası, Şirvan, eləcə də qonşu ölkələrdə hərbi iş və s. hadisələr barədə danışır.

Şirvanın XIV-XV əsrlər tarixi barədə dövrün şair və alimlərinin əsərlərində də maraqlı məlumatlar vardır. Xaqani Şirvaninin əsərlərində Şamaxının orta əsrlər tarixi sənətkarları, elm adamları və Gülüstan qalası barədə zəngin məlumatlar verilir.

Arif Ərdəbilinin "Fərhadnamə'' əsəri də bu baxımdan çox maraqlıdır. Əsər N.Gəncəvinin "Xosrov və Şirin" poeması stilində yazılmışdır. Burada Şamaxı, Gülüstan qalası, onun divarları və görünüşü barədə məlumatlar öz əksini tapmışdır. Bu dövr Şamaxının mədəni həyatının öyrənilməsində, böyük şair İ.Nəsiminin əsərlərinin də əhəmiyyəti böyükdür.

Şirvanın XV-XVI əsrlər tarixi barədə Mirxond ətraflı məlumatlar verir. Azərbaycanın XVI əsr tarixinə dair qiymətli mənbələrdən biri də Həsən bəy Rumlunun "Əhsən ət Təvarix"

əsəridir. Bu əsərdə o, Təhmasibin dövrünü şərh edir. Şərəfxan Bitlislinin “Şərəfnamə” əsərində Şah I Təhmasibin (1524-1576) hökmranlığı dövründə onun Şirvana yürüşündən, Gülüstan qalasını almasından, eləcə də Buğurt qalasını mühasirə etməsindən və Şirvan əyanlarına divan tutmasından bəhs edilir.

Şirvanın XVI əsr tarixi barədə İsgəndər Münşinin (XVII əsr) “Tarixi aləmi arayi Abbasi” əsərində maraqlı məlumatlar verilir. Burada da şah I Təhmasibin Şirvana yürüşündən, Gülüstan və Buğurt qalalarını almasından, I Şah Abbasın Şirvana yürüşündən danışılır. Şamaxıda olan İ.Münşi şəhərin qala divarları və onun quruluşu haqqında məlumat verir, onları təsvir edir. Şamaxıda baş verən zəlzələlər nəticəsindəki dağıntılar haqqında isə səyyahların məlumatları çox qiymətlidir. XV-XVII əsrlər rus və Qərbi Avropa səyyahlarından Fyodor Kotov və Adam Oleari bu haqda məlumat vermişdir. A.Olearinin Şamaxının qala divarları və ona bitişik binalar, Fyodor Kotovun isə karvansara, məscid, su sistemi barədəki qeydləri çox maraqlıdır. 1647-ci ildə Şamaxıda olmuş Övliya Çələbinin (1611-1682) məlumatları da əhəmiyyətlidir. Onun Şamaxı qalası “Kiçik qala” barədəki məlumatı müdafiə istehkamlarının və qədim şəhərin ərazisinin planının tərtib edilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Ö.Çələbi Şamaxının ictimai binaları, xüsusən, şəhər hamamı, məscid və digər tikililəri barədə də məlumat vermişdir.

Dissertasiya işində arxeoloji qazıntılar nəticəsində aşkar edilib öyrənilmiş qala divarları, müdafiə istehkamları, bürc və qüllələrinin qalıqları, dövrün elmi tarixi və bədii əsərləri, eyni zamanda səyyahların verdiyi məlumatlar əsasında Şirvanşahların həm güclü müdafiə sisteminə malik şəhərləri, həm də qala tipli abidələri olan Gülüstan, Buğurt, Ərəş, Surxab, Çıraqqala, Cavanşir və Fit qalaları, haqqında geniş məlumat verilmişdir.

**Problemin öyrənilmə dərəcəsi.** Orta əsrlərdə Şirvanın müdafiə tikililərindən danışarkən Gülüstan, Buğurt, Fit, Güngörməz, Çıraqqala, Cavanşir, Ərəş, Surxay qalalarını,

Quşçu, Əngixaran tipli yaşayış məntəqələrini, Şamaxı və Şabran şəhərlərinin qala divarlarını xüsusilə qeyd etmək lazımdır.

Gülüstan qalasında ilk tədqiqat işlərini hələ 1939-cu ildə Y.A.Paxomov aparmış, arxeoloji qazıntılar nəticəsində zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmiş, qala divarları, onun bürcləri tədqiq olunmuşdur. 1958-ci ildə C.Ə.Xəlilovun rəhbərliyi ilə Azərbaycan SSR EA Tarix İnstitutunun arxeoloji ekspedisiyası burada geniş tədqiqat işlərinə başlamışdı. 1959-62-ci illərdə aparılan arxeoloji tədqiqatlar zamanı Gülüstan qalasının müdafiə tikililəri, o cümlədən qüllələr, saray kompleksi, müxtəlif maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Arxeoloji qazıntılar 1968-69-cu illərdə də davam etdirilmiş, şəhərin qədim qala divarları və ictimai binaların qalıqları aşkarlanmışdı. 1969-79-cu illərdə aparılan növbəti arxeoloji qazıntılar zamanı Şamaxı şəhərinin X-XII əsrlərə, aid olan qala divarları aşkar edilmiş orta əsr Şamaxı şəhərinin yeri müəyyənləşdirilmişdir. XX əsrin 80-90-cı illərində A.B.Nuriyevin rəhbərliyi ilə Şamaxı arxeoloji ekspedisiyası əsasən Quşçu kəndindəki I Qalacıq, II Qalacıq, R.M.Vahidovun rəhbərliyi ilə Güngörməz müdafiə istehkamlarında, Q.C.Cəbiyevin Bəyimli qalasında, F.L.Osmanovun Fit, Cavanşir qalalarında, R.B.Göyüşovun, Q.İ.Qoşqarlının Şabran şəhər yerində, X.P.Abdullayev və Ə.Ə.Əliyevin Gilgilçay müdafiə səddində, R.M.Vahidovun XX əsrin 40-50-ci illərində və A.M.Məmmədovun 2001-2006-cı illərdə Ərəş qalasında və s. apardıqları arxeoloji tədqiqatlar Şirvanın orta əsr müdafiə tikililərinin daha ətraflı öyrənilməsinə imkan verir.

Şirvanın orta əsr müdafiə tikililərinin öyrənilməsi baxımından R.M.Vahidovun “Mingəçevir III-VIII əsrlərdə”, Q.M.Əhmədovun “Orta əsr Beyləqan şəhəri”, “Örənqala”, F.V.Qədirovun “Azərbaycanın şimal müdafiə istehkamları”, Ə.Ə.Əliyevin “Gil-gilçay səddi və Çıraqqala”, Q.C.Cəbiyevin “Girdiman tarixi və tarixi coğrafiyası”, A.M.Məmmədovun “Gəncəbasar IV-XIII əsrlərdə”, “Qədim Gəncə”, “Nizami

əsrinin Gülüstan qalası", H.Ciddinin "Gülüstan qalası", "Buğurt qalası" və s. kimi əsərlərinin əhəmiyyəti böyükdür.

Orta əsr Şirvan şəhərlərinin memarlıq baxımından tədqiqində akademik A.B.Salamzadənin böyük xidməti olmuşdur. Onun Şirvan şəhərlərinin plan quruluşu haqqındakı məlumatları bölgənin tarixinin xüsusən, Şamaxı şəhərinin XVI-XVII əsrlər tarixinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir.

Tədqiqat zamanı aparılmış arxeoloji materialların müqayisəli təhlilində Z.M.Bünyadov, T.Ə.Bünyadov, S.M.Qazıyev, N.M.Vəlixanlı, M.N.Nemətova, V.H.Əliyev, Q.S.İsmayılzadə, F.C.Məmmədova, S.Ş.Aşurbəyli, M.N.Rəhimova, X.İ.Abdullayev, İ.A.Babayev, A.İ.Ələkbərov, M.C.Xəlilov, A.A.Quliyev, B.İ.İbrahimli, Ş.S.Əhmədov, C.V.Bağırzadə, S.K.Babayeva, G.O.Hacıyev, V.A.Qasımlı, E.C.Abbasova, R.N.Rüstəmov, T.V.Əliyev, N.Ə.Alışov, L.Ş.Əhmədova və digər mütəxəssislərin elmi əsərlərindən, məqalələrindən, eləcə də hesabatlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin əsas elmi yenilikləri aşağıdakılardır:

1. İlk dəfə olaraq Şirvan bölgəsinin müdafiə tikililəri arxeoloji materiallar əsasında sistemli şəkildə elmi tədqiqata cəlb edilmişdir.
2. Şirvanın müdafiə tikililəri, onların memarlıq xüsusiyyətləri Azərbaycanın və Cənubi Qafqazın digər həmdövr abidələri ilə paralellər əsasında öyrənilmişdir.
3. İlk dəfə olaraq Şirvanın müdafiə tikililəri və o cümlədən bu abidələrdə son dövrlərdə aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilən maddi mədəniyyət qalıqları qruplaşdırılaraq kompleks şəkildə elmi baxımdan araşdırılmışdır.
4. Arxeoloji materialların yazılı mənbələr və səyyahların verdiyi məlumatlarla uzlaşdırılması əsasında abidələrin dövrünün dəqiqləşdirilməsi dissertasiya işinin əsas elmi yeniliklərindəndir.

5. Dissertasiya işlənərkən arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq Şirvanın orta əsr müdafiə tikililərinin özündən əvvəlki ənənələr əsasındakı inkişaf nəticəsində təşəkkül tapması, ənənəvilik, varislik prinsipinin izlənilməsi, onların yerli zəminlə əlaqəli xüsusiyyətlərinin yeni elmi dəlillərlə möhkəmləndirilməsi diqqət mərkəzində olmuşdur.

**Tədqiqatın nəzəri metodoloji əsasını** Şirvanın orta əsr müdafiə tikililərində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət qalıqlarının Azərbaycanın digər həmdövr abidələrinin materialları ilə elmi müqayisəli təhlili təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Dissertasiya işinin elmi nəticələri aşağıdakı istiqamətlərdə tətbiq edilə bilər:

- Azərbaycanın və bütövlükdə Qafqazın müdafiə tikililərinin arxeoloji tədqiqi problemlərinin həllində;
- Çoxcildlik Azərbaycan tarixi, Azərbaycan arxeologiyası və memarlıq tarixinə dair ümumiləşdirici əsərlərin yazılmasında;
- Azərbaycan və Qafqaz arxeologiyasına və memarlığına dair dərslik, eləcə də metodik vəsaitlərin hazırlanmasında;
- Ali məktəblərdə ixtisas kurslarının tədrisində;
- Elmi-kütləvi nəşrlərin hazırlanmasında;
- Orta əsrlər hərb sənətinin və müdafiə tikililərinin tikinti texnikasının öyrənilməsində ;
- Gənclərə vətənpərvərlik ruhunun aşılanmasında;
- Tarix və memarlıq abidələrinin bərpası və qorunması işində;
- Turizmin inkişafında.

**Dissertasiyanın aprobasiyası.** "Şirvanın orta əsr müdafiə istehkamları (arxeoloji tədqiqatlar əsasında)" adlı dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Azərbaycanın İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir. Elmi işin mühüm müddəaları müəllifin müxtəlif elmi konfranslardakı məruzə və çıxışlarında, o cümlədən, nəşr olunmuş elmi məqalə və tezislərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, qəbul olunmuş ixtisarlar, istifadə olunmuş ədəbiyyatın siyahısı, işə əlavə edilmiş plan, xəritə, şəkil və tablolardan ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin ***giriş*** hissəsində mövzunun aktuallığı, xronoloji çərçivəsi, tədqiqatın obyekti, məqsəd və vəzifələri, mənbəşünaslıq bazası, problemin öyrənilmə dərəcəsi, elmi yeniliyi, nəzəri və metodoloji əsası, praktiki əhəmiyyəti, aprobasiyası və quruluşundan bəhs edilir.

**I fəsil *"Şirvanın yerləşdiyi təbii-coğrafi şərait və müdafiə tikililəri haqqında tarixi məlumatlar"*** adlanır. Üç yarımfəsildən ibarət bu bölmədə şəhərlərin müdafiə qurğularının Şirvanşahlar dövlətinin siyasi tarixində yeri, orta əsr müdafiə tikililərinin mənbələrdə verilən məlumatları və onların arxeoloji qazıntıların nəticələri ilə əlaqələndirilməsi əsas yer tutur.

***1.1. "Şirvanın siyasi tarixinin tədqiqində şəhərlərin yeri"*** adlı ilk yarımfəsildə orta əsrlərdə Şirvanın keşməkeşli siyasi həyatı, bölgənin zəngin şəhərlərinə olan vaxtaşırı hücumlar, şimaldan cənuba və əks istiqamətdə gedən beynəlxalq yolların üstündə yerləşməsi Şirvan şəhərlərinin güclü müdafiə sisteminə malik olmasını zəruri edirdi. Şamaxı, Şabran, Bakı, Qəbələ və Ərəş kimi Şirvan şəhərlərinin müdafiə tikililəri tarixi arxeoloji materiallar əsasında araşdırılır. Orta əsrlərdə bütün Şərq ölkələrində mədəniyyət və incəsənətin inkişafına böyük təsir göstərmiş Azərbaycan, qədim və zəngin tarixi ilə seçilirdi. Onun ulu keçmişi, ölməz tarixi sirlər və əfsanələr örtüyünə bürünmüş qədim şəhərlərin müdafiə tikililərinin qalıqlarında, memarlıq irsimizi təşkil edən müxtəlif abidələrdə, yadelli işğalçılara qarşı mübarizəsi isə seçilən möhtəşəm qalalarda öz əksini tapmışdır. Bu baxımdan Şirvan bölgəsinin müdafiə tikililəri xüsusilə diqqəti cəlb edirdi.

Möhtəşəm müdafiə tikililəri ilə seçilən Şirvan şəhərləri haqqında ərəbdilli mənbələrdə xeyli məlumatlar vardır. X əsrə

aid ərəb coğrafiyasında qeyd edilir ki, ...“Bacirəvan, Əş-Şəməxiyyə, Şirvan, Əl-Abxaz, Əş-Şəbaran, Qəbələ, Şəki... böyüklükdə bir-birinə bənzəyən .... münbit torpaqları və hər şeyi bol olan yerlərdir”.

Mənbə məlumatları bir daha təsdiq edir ki, qədim və orta əsrlər dövründə Şirvan şəhərləri içərisində Şabran, Qəbələ və Şamaxı böyük iqtisadi və mədəni mərkəzlər kimi tanınmışdılar. Dərbənd keçidi vasitəsi ilə şimal və cənub bölgələrini birləşdirən əsas ticarət yollarının üzərində yerləşən bu şəhərlər güclü müdafiə sisteminə malik idilər.

***1.2. “Şirvan bölgəsinin orta əsr müdafiə tikililərinin arxeoloji materiallar əsasında öyrənilməsi”*** adlı yarımfəsildə qala və istehkamların quruluşunun və dövrünün müəyyənləşdirilməsi üçün aparılmış arxeoloji qazıntıların elmi nəticələri göstərilir.

Əsasən narınqala və rabad kimi iki hissədən ibarət olan orta əsr şəhərlərinin hamısı mütləq qala divarları və başqa müdafiə qurğuları ilə əhatə olunurdu. Bu qurğular olmadan şəhərin dinc həyatını təmin etmək mümkün deyildi, çünki xarici müdaxilədən ancaq bu qurğuların vasitəsi ilə qorunmaq olardı. O zamanlar şəhərlərin müdafiəsi üçün indiki kimi daimi nizami hərbi qüvvələr yox idi. Ona görə də orta əsr aran şəhərlərinin hamısı həm qala divarları, həm də onların ətrafında qazılmış xəndəklərlə əhatə edilirdi. Bunlar aramsız düşmən hücumlarının qarşısını tamamilə almasa da müəyyən qədər maneə yaradırdı və bunun da nəticəsində yerli əhaliyə şəhəri müdafiə etmək üçün vaxt qazandırır, hazırlıq işləri görülürdü. XIII əsrin əvvəllərində Şirvanın müdafiə tikililəri içərisində Gülüstan və Buğurt qalalarının rolu xeyli artdı. Onlar, eyni zamanda Şirvanşahların Şamaxıdan sonra əsas iqamətgahı idi. Gülüstan qalasında arxeoloji qazıntılara əsasən belə bir nəticəyə gəlmək olur ki, onun qala divarları və qüllələri bir neçə dəfə bərpa olunmuşdur. Belə qurğular yenidən tikilib bərpa olunarkən əvvəlki formasından xeyli böyük olurdu. Burada da qala divarlarının

xarici tərəfi yonulmuş daşlardan hörülmüşdür. Onların tikintisi zamanı palçığa çoxlu əhəng qatılmışdır. Divarların içərisi isə sındırılmış daşlardan ibarətdir. Bərkidici məhlul kimi qum, gil və əhəng qarşığından istifadə olunmuşdur. Buğurt qalasında arxeoloji qazıntılar zamanı tapılmış şirsiz saxsı qablar Azərbaycanın orta əsr şəhərlərində geniş yayılmış səhəng, küp və s. qırıqlarından ibarətdir. Mənbələrdə Buğurt qalası adına XVI əsrdən təsadüf olunsa da arxeoloji qazıntılar qalanın daha qədim dövrə aid olduğunu göstərir. XII-XIII əsrlərdə Buğurt qalası mühüm qalalardan biri kimi fəaliyyət göstərmişdir.

Beləliklə, Şirvanın orta əsr müdafiə tikililərinin kompleks tədqiqi müdafiə qurğularının tarixinin öyrənilməsi istiqamətində mühüm addımdır və Azərbaycanda memarlıq ənənələrinin yaşadılmasına və hərb sənətinin təkmilləşdirilməsinə xidmət etmişdir.

***1.3. "Orta əsr səyyahları Şirvanın müdafiə tikililəri haqqında"*** adlı üçüncü yarımfəsildə isə Şirvana səyahət etmiş ərəb-fars, Avropa və rus səyyahlarının əsərlərindəki məlumatlar arxeoloji qazıntılar nəticəsində əldə edilmiş dəqiq faktlarla uzlaşdırılaraq düzgün elmi nəticələr çıxarılmışdır.

Yazılı mənbələrin verdiyi məlumatlardan aydın olur ki, Azərbaycana həm kəşfiyyat, ticarət, həm də səyahət məqsədi ilə çoxlu tacir və səyyahlar gəlmişdir. Onların qeydləri də Şirvanın orta əsr müdafiə tikililərinin öyrənilməsi üçün çox qiymətlidir.

İlk orta əsrlər dövründəki işğallarla bağlı olaraq qismən gerilik müşahidə olunsa da möhkəm müdafiə tikililəri olan Şirvan şəhərləri inkişaf etmiş orta əsrlərdə (IX-XV) sənət, ticarət və mədəniyyət mərkəzi kimi öz inkişafının ən yüksək zirvəsinə çatmış, Şərqin ən mötəbər mədəniyyət mərkəzləri ilə bir sırada durmuşdular. Buna görə də onlar orta əsr səyyahlarının, diplomatlarının diqqət mərkəzində olmuşdur. Şirvana gələn hər bir xarici qonaq sənət və peşəsindən asılı olmayaraq bu qədim diyarın abidələri, insanları, mədəniyyəti, təsərrüfat həyatı və məişəti ilə maraqlanmış, onlar barəsində qiymətli məlumatlar

toplamışlar. Şirvanın orta əsr müdafiə tikililərinin öyrənilməsi və tədqiq edilməsində bu mənbələrin məlumatlarından səmərəli istifadə olunmuşdur.

Övliya Çələbi, Ambroco Kontarini, A.P.Volinski, Antoni Cenkinson, Adam Oleari, Ryun Qonsales de Klavixo, Avrill Flipp və digərləri Şirvanın şəhərləri, kəndləri və müdafiə əhəmiyyətli tikililəri haqqında məlumat vermişlər.

Tədqiqatlar belə bir nəticəyə gəlməyə əsas verir ki, III-XVI əsrlərdə Şirvanın müdafiə tikililərinin öyrənilməsində arxeoloji qazıntılarla yanaşı orta əsr səyyahlarının məlumatları da böyük əhəmiyyətə malikdir.

**II fəsil *“Müdafiə tikililərinin inşaası və onun xüsusiyyətləri”*** adlanır. Bu fəsildə üç yarımfəsildən ibarət olmaqla müdafiə tikililərinin texniki xüsusiyyətlərindən, arxeoloji materiallar əsasında xammal mənbələrinin təsnifatı və şəhər yerlərinin formalaşmasında müdafiə tipli tikililərin əhəmiyyətindən bəhs edilir.

***2.1. “Müdafiə tikililərinin tikinti texnikası və mühəndislik işinin arxeoloji materiallar əsasında tədqiqi”*** adlı yarımfəsildə arxeoloji qazıntıların nəticələrinə əsasən müdafiə tikililərinin tikinti texnikasının öyrənilməsi şərh edilir.

Orta əsrlərdə şəhərlərin “qala divarlarının düz xətlə getməsi, kvadrat planda olması, bürclərin isə yarımdairəvi formada tikilməsi qalaların müdafiəsini xeyli asanlaşdırırdı. Belə sistemli qala tikintisi dövrün ən mükəmməl müdafiə tikintisi hesab olunurdu və müdafiənin bütün tələblərinə cavab verirdi. Bu cür tikintilər qalanın hərbi əhəmiyyətini və qüdrətini də artırırdı. Bu sistemdə müdafiə qalası tikmək ənənəsi Azərbaycanda uzun müddət” davam etmişdir.

Şirvan şəhərlərinin tədqiqi göstərir ki, Sasani şahları Dərbənd keçidinə yaxın olan ərazilərdə 360-a qədər müdafiə qurğusu və qəsrlər tikmişdilər. Belə abidələr içərisində feodal qəsrləri, şəhərin qalası, qüllələrdən ibarət müdafiə tikililəri xüsusi yer tuturdu. XV əsrdə böyük nailiyyətlər əldə edən

Şirvan memarlığı və şəhərsalma işi XVI əsrdə "durğunluqla" əvəz olunur. XVI-XVIII əsrlərdə də memarlıqda əsasən, ötən əsrlərin ənənələri davam etdirilirdi.

Strateji cəhətdən etibarlı yerlərdə salınmış və ya süni istehkamlarla möhkəmləndirilmiş şəhərlər ətraf ərazinin əhalisini cəlb edirdi. Bir çox şəhərlərin "müdafiə divarları oval və ya dairə şəklində tikilirdi. Qala divarlarının perimetrinin şüurlu surətdə azaldılması onun daxilindəki sahənin xırdalanmasına səbəb olurdu. Bu da tikinti üçün material və vəsait sərfini azaldır, az hərbi qüvvə ilə qalanı müdafiə etməyə imkan verirdi".

Bu dövrdə Şirvan memarlıq məktəbi ənənələri onun ərazisindən kənarda da yayılmışdı. Orta əsr Gürcüstan ərazilərində olan bəzi istehkamların tikinti üslubu və quruluşunda Şirvan memarlıq məktəbinin təsiri aydın izlənilir. Gürcü çarı Tamaranın sarayı da yonma bazalt daşı ilə çarpazlaşma formasında tikilmişdir. XII əsrə aid olan bu cür binalar Dmanisidə də (indiki Gürcüstan) aşkar olunmuşdur. Onların tavanı tağ formasındadır. Tavanları daşla yarımdairəvi tağ formasında tikilmiş və XII-XIII əsrlərə aid edilən saraylar orta əsrlərin digər şəhərlərində də vardır.

***2.2. "Müdafiə tikililərinin inşasında istifadə olunan xammal və onun mənbələrinin arxeoloji tədqiqatlara görə müəyyənləşdirilməsi"*** adlı ikinci yarımfəsildə tikinti üçün zəruri olan xammal mənbələrinin tədqiqi əsas yer tutur.

Müdafiə istehkamlarını tikmək üçün ilk növbədə tikinti materialları, xammal tələb olunurdu. Təbii ki, ərazidə təbii xammal olmasa, onu başqa yerdən, uzaq məsafədən daşıyıb gətirməklə bu nəhəng tikinti işlərinin öhdəsindən gəlmək olmazdı. Şirvan torpağı müxtəlif çalarlı-tünd rəngli, şabalıdı, açıq-sarı rənglidir. Zəngin gil ehtiyatları tikinti və dulusçuluq sənəti üçün xammal mənbəyi rolunu oynayırdı. Pirsaat çayının yuxarısı, həmçinin dağların çox hissəsi yarpaqlı meşələrlə örtülmüşdür. Burada palıd, vələs, qovaq, fısdıq, şam ağacları

bitir və onlar qiymətli tikinti materialı hesab olunurlar. Belə tikinti materialları ilə Çıraqqala və Qəbələ ətrafı ərazilər də zəngindir. Şirvanın inşaat materialları içərisində gil və ondan hazırlanan məmulatlar geniş yer tutur. Beləliklə, qeyd etmək olar ki, orta əsr müdafiə tikililərinin inşası zamanı tələb olunan tikinti materiallarının hamısı Şirvan ərazisində var idi. Bunun nəticəsidir ki, qədim zamanlardan son orta əsrlərə qədər tikinti işləri həmişə çox geniş yayılmış və tərəqqi etmişdir. Məhz tikinti materiallarının bolluğu Şirvanı orta əsrlərin ən əzəmətli tikililəri ilə seçilən bölgələrindən birinə çevirmişdir.

***2.3. "Şirvan şəhərlərinin formalaşmasında müdafiə tikililərinin əhəmiyyətinin arxeoloji tədqiqatlar əsasında öyrənilməsi"*** adlı üçüncü yarımfəsildə şəhər yerlərinin formalaşmasında qala və istehkamların bilavasitə göstərdiyi təsir arxeoloji tədqiqatlar əsasında öyrənilmişdir.

Şəhərlərin yaranması müəyyən amillərlə, tarixi və coğrafi şəraitlə bağlıdır. Hələ eramızın əvvəllərində yunan coğrafiyaşünası Klavdi Ptolomey (70-147-ci illər) Azərbaycanın 29 iri yaşayış məntəqəsinin adını çəkmişdir ki, onlardan da biri Şamaxı (Memaxiya), digəri isə Qəbələdir (Kabalaka).

Türk səyyahı Ö.Çələbi Şamaxı şəhərini 26 məhəlləyə bölmüşdür. Onlardan "Meydan" və Şapurart məhəllələri öz abadlığı və zövqlə bəzədilmiş gözəl fasad və interyeri olan evlərin varlığı ilə diqqəti cəlb edirdi.

Şirvanın orta əsr şəhərləri və qala divarları barədə H.Ciddinin tədqiqatları əhəmiyyətlidir. Bürc və qalalarda aparılan qazıntılar zamanı tapılmış maddi-mədəniyyət abidələri, məişət əşyaları, sikkələr, əmək alətləri şəhər əhalisinin sosial təbəqələşməsini, məişətini, iqtisadi əlaqələrini, silah nümunələri isə müdafiə qüdrətini öyrənmək baxımından çox maraqlıdır. XVI əsrin əvvəllərində Şirvanşahlar dövləti tarix səhnəsindən silinsə də, XVI əsrin II yarısında və XVII əsrdə Şamaxı öz iqtisadi, eləcə də beynəlxalq əhəmiyyətini saxladığından şəhərin ümumi quruluşu və iqtisadi həyatı sabitləşir. XVI əsrdə ingilis

A.Cenkinsona "şahanə şəhər" təsiri bağışlayan Şamaxı o zaman böyük və abad bir şəhər olmuşdur.

2001-ci ilin mart ayında Şamaxı şəhərindəki 6 saylı məktəbin həyətindəki bünövrə qazıntısı zamanı təqribən 4-4,5 metr hündürlüyündə olan divar və digər maddi-mədəniyyət qalıqları üzə çıxarılmışdır. Əksər tapıntıların XIII-XIV əsrlərə aid olması bu tikintilərin monqol hücumlarından sonrakı dövrə aid olduqları fikrini söyləməyə əsas verdi. H.Ciddi və A.Nuriyev tərəfindən irəli sürülmüş fikirləri bir daha yenidən təsdiqlədi.

Antik, İlk orta əsr və Orta əsrlər mədəni təbəqələri ilə seçilən Qəbələ şəhərinin ərazisi xüsusi xəndək vasitəsilə 2 hissəyə ayrılmışdır. Şimal hissə Səlbir, cənub hissə isə Qala adlandırılır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Səlbirin qala divarlarında qeydə alınan 10 bürc yerin relyefinə uyğun tikilmişdir. Divarlar şimalda 410 m, cənubda 210 m, qərbdə 448 m, şərqdə 357 m-dir. Səlbirin qala divarlarının perimetri 1425 m, qala divarlarından içəridəki ümumi sahəsi 12 ha-dır.

2005-2015-ci illərdə Azərbaycan və Koreya arxeoloqlarının birgə elmi tədqiqatları nəticəsində müəyyən edilmişdir ki, Səlbirin şimal müdafiə divarlarının orta hissəsində VIII–IX əsrlərdə bərpa işləri aparılaraq möhkəmləndirilmiş, bu zaman kvadrat formalı bişmiş kərpic və əhəng məhlulundan geniş istifadə edilmişdir. Qəbələ şəhərinin Qala hissəsinə gəldikdə, oranın müdafiə divarlarının isə şərq hissəsinin uzunluğu 610 m, şimal hissəsi 235 m, qərb hissəsi 616 m, cənub hissəsi 130 m-dir. Qala hissəsinin müdafiə divarlarının perimetri 1591 m-dir.

Yevlax rayonu ərazisində orta əsrlərə aid Ərəş şəhər yeri haqqında müxtəlif yazılı mənbələrdə tarixi qeydlər var. Ərəş şəhərinin salamat qalmış müdafiə divarının qalıqlarının ilkin sxematik planının işlənməsi onun dördkünc formaya malik qala divarları ilə əhatə olunduğunu söyləməyə əsas verir. R.M.Vahidov Ərəşin qala divarlarının kvadrat formaya malik

olduğunu, qala hissəsinin eninin 200 m, uzunluğunun isə 215 metr olduğunu bildirir. Bəlli olur ki, düzbucaqlı formasında olan qala - şəhərin hər küncündə yarımoval formaya malik qala bürcü olub. Qala divarı qalıqlarının hündürlüyü 4,2 metr olmuşdur. R.M. Vahidov həmçinin, müşahidələrinə əsasən şəhərin dörd tərəfində (şərq, qərb, şimal, cənub) qala darvazalarının yerini müəyyən etmişdir. Müşahidələrə görə müdafiə divarının darvazası tağbəndlə tamamlanmışdır. Ərəş şəhərinin plan quruluşu Beyləqan və Şətəl şəhərləri ilə oxşarlıq təşkil edir. Ərəşin qala divarlarının ətrafında 4 metr enində xəndək qazılmışdır.

Şabran şəhərinin son illərdə arxeoloji cəhətdən sistemli şəkildə öyrənilməsi onun ilk orta əsrlər və orta əsrlər dövründə Şirvanın güclü müdafiə tikililərinə malik mühüm şəhərlərindən biri olduğunu göstərmişdir.

**III fəsil *“Şirvan bölgəsinin müdafiə istehkamları və qalalarında arxeoloji tədqiqatlar”*** adlanır və üç yarımfəsildən ibarətdir.

***3.1. “Şirvan bölgəsinin müdafiə tipli memarlıq abidələrində arxeoloji tədqiqatlar”*** adlı birinci yarımfəsildə qala və istehkam səddlərinin yerləşdiyi ərazilərdə aparılmış arxeoloji qazıntıların nəticələri göstərilir.

Müdafiə istehkamları əsasən, təbii müdafiə qabiliyyətinə malik əlverişli yerlərdə, xüsusən dağ keçidlərində salınırdı. Bu da nisbətən az xərc tələb edirdi. Orta əsrlərdə müdafiə istehkamları Azərbaycanda xüsusilə fərqli idi. Belə ki, həmin dövrlərdə ölkəmizin ərazisini işğal etmiş Sasanilər burada daha da möhkəmlənmək və xarici hücumlardan qorunmaq məqsədi ilə Azərbaycanın şimal sərhədlərində xüsusi şaxələnmiş müdafiə sistemi yaratmışdılar. Buraya Şirvanın şimalında Beşbarmaq, Gilgilçay və Dərbənd sədləri, Zaqatalanın uzun qala divarları kimi əzəmətli müdafiə istehkamları daxil idi. Şirvanda müdafiə qurğuları lap qədimdən mövcud olmuşdur.

Dərbənd divarlarının tikilməsini yazılı mənbələr Sasani

çarı II Yezdəgerdə, Qubada və onun oğlu I Xosrov Ənuşirəvana aid edirlər. Mənbələrə görə çiy kərpic və möhrədən tikilmiş divarlar II Yezdəgerd, indi də mövcud olan daş divarlar isə Qubad və I Xosrov Ənuşirəvan tərəfindən VI əsrdə tikilmişdir. Aparılan arxeoloji tədqiqatların nəticələri göstərir ki, Şirvanın şimal sərhədlərində müdafiə tikililəri daha qədimlərdən mövcud olmuş, sasanilər isə ya köhnə istehkamları bərpa etdirmiş, ya da tamamilə dağıdılmış qurğuları yeniləri ilə əvəz etmişdilər. Bütün hallarda, müdafiə qurğularını Azərbaycan xalqı özü yaratmışdı.

Ərəb xilafəti zəifləməyə başladığı zaman bir çox yerlərdə olduğu kimi Azərbaycanda da müstəqil dövlətlər yarandı. Onlar da bir-biri ilə müharibələr aparmaqla məşğul olurdular ki, bu da təbii olaraq müdafiə qurğularının və istehkamların yaranmasına və gücləndirilməsinə səbəb olurdu.

IX əsrin II yarısından etibarən, Şirvanda hakimiyyətə gələn Məzyədilər (861-1027) sülaləsinin nümayəndəsi Məhəmməd ibn Əhmədin dövründə Şirvanın sərhədi qərbdə Göyçay vadisinə çatırdı. O. ərazini daha da genişləndirmək məqsədi ilə 981-ci ildə Qəbələyə hücum edib onu işğal edir. Qəbələ hakimi Abbas əl-Avarın oğlu Abdal Barrın əlindən şəhəri almışdı. Lakin o, təslim olmamış, oradakı qalalardan birinə çəkilmişdi. Şirvanşah Məhəmməd ibn Əhmədin ölümündən sonra onun qardaşı Yəzid ibn Əhməd Qəbələ hakimi ilə müharibəni davam etdirmiş, qonşu feodallarla apardığı müharibələrdə qələbələr qazanmış və Şirvanşahların ərazisini genişləndirmişdi.

Faktlar göstərir ki, həm Atabəylər, həm də Şirvanşahlar dağ qalalarının, qüllələrin, qəsrlərin bərpa edilməsinə və tikilməsinə böyük diqqət vermişlər. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət abidələrinə əsasən demək olar ki, orta əsrlərdə şəhərlərin əmələ gəlməsi və inkişaf edib sənətkarlıq, ticarət mərkəzlərinə çevrilməsində onların müdafiə qurğularının və yaxınlıqdakı qalaların əhəmiyyətli rolu olmuşdur.

Azərbaycanın ən güclü seysmik bölgələrindən olan Şirvanda tikinti zamanı yer seçilərkən ona xüsusi diqqət yetirilirdi. Belə yerlərdə tikinti apararkən palçıq məhluluna uçağan bitkisinin yarpaqlarını qatırdılar ki, o da divarın elastiklıyini artırır, uçma təhlükəsini azaldırdı.

***3.2. "Qala tipli müdafiə qurğularında arxeoloji tədqiqatlar"*** adlı növbəti yarımfəsildə qeyd olunan abidələrdə, xüsusən son illərdə aparılan arxeoloji qazıntılarda əldə olunan yeni faktlardan bəhs olunur.

Orta əsrlərdən fərqli olaraq qədim dövrlərdə şəhərin hasarı hündür və əsasən. iri daşlardan, möhrədən çiy kərpicdən və ağaclardan tikilirdi.

Bütövlükdə Azərbaycanda olduğu kimi Şirvan memarlığı da XII - XIII əsrlərdə çiçəklənmə dövrünü keçirirdi. Bu dövrün müdafiə qalaları, qəsrlər, saraylar, dini ibadət yerləri və memorial qurğular Azərbaycan memarlığının qızıl fonduna daxil olmuşdur.

Şirvan-Abşeron memarlıq məktəbinin ən yüksək zirvəsi Bakı təpələrinin birində inşa edilən Şirvanşahlar abidə kompleksidir. Lakin Şirvanşahlar abidə kompleksi Bakıdan daha əvvəl Şamaxıda inşa edilmiş, zəlzələ ilə əlaqədar yerini müvəqqəti dəyişmişdir. Səlcuq imperiyasının parçalanmasından sonra Şamaxı möhkəmlənmiş və Şirvanşahlar dövlətinin paytaxtına çevrilmişdir.

Şirvanın qala tipli müdafiə tikililərindən ən məşhuru Gülüstan qalasıdır. Bu qalanın divarı və bürcləri iki hissədən ibarətdir. Birinci qalanın yerləşdiyi dağın yuxarısındakı geniş meydançanı cənub və qərbdən əhatə edən və qonşu Xınıslı kəndindən aydın görünən ön istehkamın, ikincisi isə dağın ən yüksək zirvəsində tikilən arxa istehkamın - Narınqalanın divar və bürclərinin qalıqlarından ibarətdir. Ön qurğunun, yəni istehkamın bürc və divarları qalanın cənub-şərq tərəfində olan böyük yarımdairəvi bürcdən başlamış şimal-qərbə tərəf maili istiqamətdə davam edir. Uzunluğu 400 metrə qədər olan bu

ərazidə 6 yarımdairəvi bürcün qalıqları görünür. Bu bürclər arasındakı məsafə müxtəlifdir. Bürcləri birləşdirən divarlar indi tamam dağılıb.

Müşahidələr zamanı uçmuş divar və bürclərdən hansının daha əvvəl tikildiyi müəyyənləşdirilmişdir. Buradan görünən bürc və divarlardan müəyyən edilmişdir ki, onlar əvvəllər kiçik ölçüdə tikilsələr də sonradan ətraflarında əlavə hörgü işləri görülmüş və böyüdülmüşdür. Qala divarının eni özüldə 2,5-3 metrdir. Bu endə olan özülə əsasən, divarın hündürlüyünün 4-5 metr olduğunu ehtimal etmək olar. Bu hissədəki qala divarları 6-cı bürcə çatandan sonra kəskin surətdə şimala doğru dönür və orada Narınqalanın bürcü ilə birləşir. Narınqala ön istehkamın arxasında, dağın şimal qərb tərəfində, ən hündür yerdə inşa edilmişdir. Narınqala cənub-şərq və cənub-qərb tərəfdən ikinci qala divarı və bürclərlə müdafiə olunur. Narınqalanın şimalını isə qalanın arxasında dərəyə tərəf sıldırım qayalıq qoruyur. Buradan dağın yuxarısını və ətraf yerləri yaxşı müşahidə etmək olur. Uçub dağılmış bürc və divarların qalıqları göstərir ki, qala bürclərinin sayı 7 imiş. Burada olan bürclərdən birinci ilə beşinci arasındakı məsafələr eynidir. Onlar ön istehkama paralel olaraq şimal qərb istiqamətində uzanır. Divar burada qalanın şimalında olan altıncı bürclə birləşir. Əvvəlki dairəvi beş bürcdən fərqli olaraq altıncı bürc dördkünc plandadır. Bu bürclərdən başqa qalanın şərqində daha bir bürc qalığının yeri görünür. Ayrılıqda tikilən bu bürc çox güman ki, qalanın şərq tərəfini nəzarətdə saxlayan müşahidə məntəqəsi olmuşdur.

2012-2015-ci illərdə A.A.Quliyevin rəhbərliyi ilə Şirvanın Gülüstan qalasında aparılan arxeoloji tədqiqatlar zamanı su kəmərinin qalıqları aşkar olunmuş və beləliklə qalanın su təchizatının mənbəyi, quruluşu və istiqaməti müəyyən edilmişdir. Y.A.Paxomov Şamaxının Gülüstan qalasının şərq tərəfində yerləşən bu hovuzlara Əngəxaran kəndinin yuxarısında olan bulaqlardan da su gətirildiyini bildirmişdir. Bu kənd Şamaxıdan Çuxuryurda gedən yolun qərbində, şimal-qərb

istiqamətində yanaşı ucalan Quşxana və Binaslı dağlarının cənub ətəyindədir.

Buğurt qalası Gülüstan qalasından fərqli olaraq, təbii aşırımlar vasitəsi ilə bir-birinə birləşən dağ silsilələrinin zirvəsindədir. Bu silsilə cənubdan başlayaraq şimala – Böyük Qafqaqz dağlarına  doğru getdikcə yüksəlir və əlçatmaz olur. Şirvanın bütün qalaları kimi Buğurt qalası da müxtəlif ölçülü daşlardan tikilmişdir.

Şirvanda yanlız qalalarda deyil, həmçinin, memorial abidələrin tikintisində də yerli daşlardan istifadə olunmuşdur. Şirvan-Abşeron memarlıq məktəbinin məşhur nümunələri olan Nardaran, Ramana, Mərdəkan və Bilgəh qalalarının tikinti üslubu XIII-XIV əsrlər üçün xarakterikdir.

Şirvanın şimal sədlərində - Gilgilçay, Beşbarmaq, o cümlədən, qala və qüllələrdə - Tərkəş qalasında, Muxas qülləsində, Xaçmaz və Bum Govur qalalarında və Şirvan məktəbinin digər müdafiə tipli tikililərində izləri nəzərə çarpan zaman fərqlərinə baxmayaraq onlar xronoloji cəhərdən biri digərinin varisi hesab olunmalıdır.

Şirvanın orta əsr müdafiə qalalarından biri də Fit qalasıdır. Bu qala feodalizm dövrünün sonlarına qədər fəaliyyətdə olmuşdur. Ondan əsasən xanlıqlar dövründə daha intensiv istifadə olunmuşdur. Fit qalası indiki İsmayıllı rayonunun Sulut kəndinin şimal-qərbində, Mücü kəndinin şərqində, Baba dağın cənub ətəyində yerləşir. Qala dəniz səviyyəsindən təqribən 1800 metr hündürlükdədir. Qalanın ətrafı sıx meşələr, sıldırımlı dağ yamacları ilə əhatə olunmuş, üstü isə alp çəmənlikləri ilə örtülmüşdür. Burada olan çoxlu təbii bulaqlar və yerin strateji cəhətdən əlverişli mövqedə olması qalanın bir sığınacaq kimi çox etibarlı olduğunu göstərir.

Şirvanın orta əsr yaşayış məntəqələrindən biri də Quşxana yaşayış məntəqəsidir. Yaşayış məskənləri olan yerlərdə çox təbii olaraq müəyyən müdafiə qurğuları və sığınacaqlar da mövcud olur. Şamaxı rayonunun şimal-qərbində, təxminən 3 km

məsafədə yerləşən Əngixəran kəndinin yaxınlığındakı Quşxana dağı üstündə təsərrüfat işləri zamanı bu yaşayış yerindən şimal-qərbdə, ondan təxminən 1-2 km aralıda Qalaça adlanan bir abidə aşkarlanmışdır. Burada təsərrüfat işləri zamanı çoxlu bardaq, çıraq, qazan və s. saxsı məmulatların qırıqları tapılmışdır.

Beşbarmaq paralel divarları bəzi tədqiqatlarda Xursan qayası kimi göstərilir. Onun Xursan ölkəsini Şirvan vilayətindən ayırdığı bildirilir. Bu abidə haqqında Məsudi, M.Kalankatlı, A.Oleari, E.Kempfer, Y.Streys, İ.Lerxe, A.Düma, arxeoloqlardan B.M.Zummer, Ə.Ələkbərov, Y.Paxomov və digərləri məlumat vermişlər. Kempfer Beşbarmaq müdafiə səddindən danışarkən oradakı bulağın Xıdır Zində adlandığını qeyd etmişdir.

Çıraqqala abidəsi Çarax kəndinin 1,5 km cənub-şərqində, "Qalaaltı" deyilən yerin yaxınlığında yerləşir. Abidə Gil-gilçay səddinin üzərindədir. Burada əsas tədqiqat işləri X.P.Abdullayev tərəfindən aparılmışdır.

Surxab qalası haqqında ayrı-ayrı mənbələrdə müxtəlif məlumatlar verildiyi üçün onun lokallaşdırılmasında ziddiyyətli fikirlər meydana çıxmışdır. Lakin qeyd edək ki, Surxab qalası ilə Surxay qalasını da qarışdırmaq olmaz. S.M.Qazıyev "Surxay qalası" deyilən yeri Oğuz rayonu ərazisində, Srxab şəhər yerini isə Ağdaş rayonunun Kükəl kəndindən şimalda, Türyançay qəsəbəsi yaxınlığında lokalizə edir. Surxab qalası iki sahədə: Şiştəpədə və Köndələndağda yerləşir. Abidə yerləşən sahənin uzunluğu 200 m, eni isə 25-30 m-dir.

İsmayıllı rayonunun Talıstan kəndi yaxınlığında olan Cavanşir qalası VII əsrdə tikilmişdir. Bəyimli qalası (Torpaqqala) Ağsu rayonunun Bəyimli kəndi ərazisində, Girdmançayın sol sahilində yerləşir. Ərazisi 9 hektara yaxındır. Niyal qalası da eyni istiqamətdədir. Qalanın adına ilk dəfə "Hüdud əl-aləm" əsərində rast gəlinir.

***3.3. "İstehkam tipli müdafiə vasitələrinin arxeoloji tədqiqi"*** adlı sonuncu yarımfısildə isə qala divarları, gözətçi

məntəqələri, qüllələr və müdafiə divarlarının arxeoloji tədqiqinə geniş yer verilmişdir.

Şirvanın müdafiə tikililəri içərisində Güngörməz müdafiə tikilisi xüsusi yer tutur. Güngörməz müdafiə qalasını iki hissəyə ayırmaq olar. Birinci 4-5 hektar ərazini əhatə edən daxili müdafiə qalası (Narın qala), ikinci isə 35-40 hektarlıq müdafiə qalası. Bütünlüklə hər ikisinin çox hissəsi çılpaq qayalardan ibarətdir.

1 Qalacıq müdafiə istehkamı öz möhtəşəmliyi ilə Şamaxının digər həmdövr abidələrindən fərqlənir. 4 hektar sahəni əhatə edən Qalacıq yaşayış yerində ilk məskunlaşma eramızın I-II əsrlərində başlamışdır. Qala binası altında olan antik dövr mədəni təbəqəsinin varlığı bizə bu nəticəyə gəlməyə imkan verir.

I Qalacıq müdafiə istehkamında arxeoloji tədqiqatlar arxeoloqlar A.B.Nuriyev və A.M.Məmmədov tərəfindən aparılmışdır. Aşkar edilən materiallar əsas etibarilə məişətdə və təsərrüfatda işlədilən saxsı qab nümunələrindən ibarətdir.

İkinci Qalacıq adlandırdığımız müdafiə istehkamı isə Quşçu kəndindəki Qalacıqdan təqribən 2,5-3 km cənub şərqdə yerləşir. C.Xəlilov yaşayış yerinin dövrünü V-VII əsrlərə aid etmişdir. Yaşayış yerinin qonşu abidələri haqqında sonradan ərazidə tədqiqat işləri aparmış R.M.Vahidov, A.B.Nuriyev, E.Ə.Qasımov, A.M.Məmmədov və Ş.S.Əhmədov da məlumat vermişlər.

Başıbağlı müdafiə tikilisi Kolanı kəndinin əraszisində yerləşir. Erkən orta əsrlər dövrünə aid olan bu abidə R.M.Vahidov, A.B.Nuriyev və F.L.Osmanov tərəfindən tədqiqata cəlb edilmişdir. Bu qala ikinci Qalacıqdan 150 m şərqdədir. Adından göründüyü kimi dağın başı qala divarı ilə hörüldüyü üçün bu yerə "başıbağlı" deyilmişdir.

Gil-gilçay müdafiə səddi 1931-1932-ci illərdə Y.A.Paxomov, 1961-ci ildə X.P.Abdullayev, 1982-1991-ci illərdə Ə.Ə.Əliyev tərəfindən öyrənilmişdir. Şabran rayonu ərazisində yerləşən bu sədd Xəzər dənizindən başlayıb Zaqatala

və Balakən rayonlarından keçərək Qara dənizə qədər uzanır.

Beləliklə, qeyd olunan abidələrdə aparılmış arxeoloji qazıntı işləri dəyərli elmi nəticələrə gəlməyə imkan vermiş, Qafqaz Albaniyası və Şirvanşahlar tarixinin mühüm səhifələrinə dair elmi yenilikləri üzə çıxarmaq mümkün olmuşdur.

Şirvanın orta əsr müdafiə tikililəri arxeoloji materiallar əsasında ilk dəfə olaraq geniş planda və kompleks şəkildə öyrənilmişdir. Maddi mədəniyyətin öyrənilməsi əsasında orta əsr memarlıq tikililərinin bölgənin inkişafındakı yeri müəyyənləşdirilmişdir. Orta əsr memarlıq tikililərinin inkişaf və tənəzzül səbəbləri araşdırılmışdır.

Dissertasiya işinin ***nəticə*** hissəsində elmi işin əsas yekunları göstərilir.

Şirvanın orta əsr müdafiə tikililəri yarandığı dövrün ictimai-siyasi hadisələrini, tikinti texnikasının səviyyəsini, ötən nəsillərin arzu və istəklərini, bədii zövqünü və təfəkkürünü əks etdirən daş salnamələr, yadelli işğalçılara qarşı "düyünlənmiş yumruqlar"dır.

Müdafiə tikililəri həmişə onları yaradan sənətkarların dili ilə danışır.

Şirvanın müdafiə tikililərində aparılan tədqiqatların nəticələri bir daha sübut edir ki, bu bölgədə şəhərlər elə yarandığı dövrdən başlayaraq möhkəm müdafiə qurğularına malik olmuş, yadelli işğalçıların basqınları və zəlzələlərlə bağlı dəfələrlə dağıntılara məruz qalsa da yenidən bərpa edilmişdir. Bu hal son orta əsrlər dövrünə, yəni XVII-XVIII əsrlərə qədər davam etmişdir.

Şirvanın müdafiə tikililərinin arxeoloji baxımdan öyrənilməsi orta əsrlərdə ərazidə sənətkarlığın - xüsusilə şəhərsalmanın, inşaat və memarlıq sənətinin yüksək səviyyədə inkişaf etdiyini sübut edir.

Şirvan bölgəsində aparılan arxeoloji qazıntıların nəticələri burada ilk yaşayış məskənlərinin Güngörməz dağında, I Qalacıq və II Qalacıq abidələrində yerləşdiyini, antik dövrdə Xınıslıda,

orta əsrlərdə isə Gülüstan qalası ətrafında möhtəşəm bir şəhərin və onların möhkəm müdafiə tikililərinin olduğunu söyləməyə əsas verir.

Arxeoloji tədqiqat işləri nəticəsində tarixi Şirvan torpaqlarında mövcud olmuş Gilgilçay, Beşbarmaq, Güngörməz, I Qalacıq, II Qalacıq səddləri, Çıraqqala, Cavanşir qalası, Niyal qala, Fit qalası, Govurqala, Tərkəş qalası, Srxab qalası, Mərdəkan, Nardaran, Ramana qalaları, Qız qalası, Bilgəh qalası tipli istehkamlar , o cümlədən, şəhər yerlərində inşa olunmuş müdafiə divarları, şəhər tipli yaşayış yerləri və mühüm ticarət yolları üzərində yerləşən gözətçi məntəqələri elmi süzgəcdən keçirilərək tədqiq olunmuşdur.

**Dissertasiyanın əsas məzmunu iddiaçının nəşr olunmuş məqalələrində öz əksini tapmışdır.**

1. Античные монетные клады – как показатель участия Азербайджана в международной торговле // Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, Bakı 2014, № 1, səh 120-123
2. Şirvanın IV-XII əsr müdafiə tikililəri və onların inşa edilməsində məqsəd // Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, Bakı 2014, № 2, səh 106-110
3. Исторические направления великого шёлкового пути // Azərbaycanda 2014-cü ildə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyasının materialları, Bakı, 24 aprel 2015, səh. 99-103
4. Orta əsr şəhərlərinin öyrənilməsində Gəncənin yeri // Qafqaz tarixinin aktual problemlərinə həsr olunmuş II Beynəlxalq elmi-praktik konfransın materialları, II hissə, Gəncə 15-16 oktyabr 2015, səh. 60-63
5. Şirvan bölgəsinin şimal-şərq müdafiə tikililərinin memarlıq quruluşu haqqında (arxeoloji materiallar əsasında) // Azərbaycan arxeologiyası və etnoqrafiyası jurnalı, Bakı 2015, № 1, səh. 118-126
6. Qobustan rayonunun memarlıq tikililəri haqqında // Tarix və onun problemləri jurnalı, Bakı 2016, № 1 səh. 138-142

7. Середньовічні архітектурні пам'ятники Гёй-Гёльского району Азербайджану // Науковий вісник збірник наукових праць Випуск 104( № 1 ) Украіна, Кіев, 2016, ст. 135-140.

*Севиндж Ариф гызы Гулиева*

**Средневековые оборонительные сооружения Ширвана (на основании археологических исследований)**

**Р Е З Ю М Е**

Диссертация, представленная на соискание ученой степени доктора философии по истории посвящена исследованию средневековых оборонительных сооружений Ширвана на основании археологических исследований.

Диссертационная работа состоит из введения, трех глав, заключения, списка принятых сокращений, списка использованной научной литературы, приложенных планов, карт, иллюстративного материала и таблиц.

В I главе «Исторические сведения о природно-географическом положении и оборонительных сооружениях Ширвана», состоящей из трех подглав, основное место отведено исследованию роли оборонительных сооружений в политической истории государства Ширваншахов, источникам о средневековых оборонительных сооружениях и их научном сопоставлении с результатами археологических изысканий.

Во II главе «Возведение оборонительных сооружений и его особенности», также состоящей из трех подглав, исследованы вопросы технических особенностей оборонительных сооружений, характеристика источнокив сырья на основании археологического материала, роль оборонительных сооружений в определении места формирования городов.

В третьей главе «Археологические исследования оборонительных сооружений и крепостей»изучены вопросы «Археологические исследования архитектуры оборонительных сооружений Ширванского региона», «Археологические исследования оборонительных крепостей», «Археологические исследования оборонительных сооружений».

В заключении нашли отражение основные положения диссертации.

*Sevinj Arif gyzy Guliyeva*

**Medieval fortifications of Shirvan**
**(on the basis of the archaeological researches)**

**SUMMARY**

Dissertation work which had been alloted for the award a philosophy doctor degree dedicated to the study of Medieval fortifications of Shirvan on the basis of the archaeological researches.

The dissertation work consists of the introduction, three chapters, conclusion, adopting abridgements, the list of the used scientific literature, plan, map, picture and boards which have added to the text part.

In the ***introduction*** it deals with the topicality of the theme, chronological frame, the object of the research, sources, level of its studying, scientific novelty and practical importance, theoretical and methodological basis, approbation and structure.

**I chapter** is called ***"Natural-geographical situation which situated Shirvan and historical information about fortifications"***. The role of the cities' fortifications in Shirvanshashs' political history, the written sources' information about medieval fortification and connection between the results of the archaeological excavations make main place in this chapter which consists of three sub-chapters.

**II chapter** is called ***"The building of the fortification and their characters"***. This chapter is consists of the themes like as technical characters of fortifications, classification of the stuff sources on the basis of the archaeological materials and role of the fortifications on the formalisation of cities which consists of three sub-chapters.

**III chapter** is called ***"Archaeological researches in the fortifications and towers of Shirvan region"*** and studying by three sub-chapters like as "Archaeological researches in the defensive type of the architectural monuments of Shirvan region", "Archaeological researches in the tower type structures", "Archaeological research of the fortification type of defensive means".

In the conclusion it deals with the common thesis of the

dissertation work.

Tiraj 100. Format 60x84 $^1/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

***На правах рукописи***

**СЕВИНДЖ АРИФ кызы ГУЛИЕВА**

# СРЕДНЕВЕКОВЫЕ ОБОРОНИТЕЛЬНОЕ СООРУЖЕНИЕ ШИРВАНА
**(на основе археологических исследований)**

**5505.02 – Археология**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2016**